“Möminin halı necə də təəccüblüdür, onun hər halı xeyirdir və bu, mömindən başqa heç kəsə aid deyil

Suheybdən (Allah ondan razı olsun) rəvayət edilir ki, Allahın Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dedi: “Möminin halı necə də təəccüblüdür, onun hər halı xeyirdir və bu, mömindən başqa heç kəsə aid deyil. Əgər ona bir sevinc toxunsa, şükür edər və bu onun üçün xeyir olar. Əgər başına bir müsibət gəlsə, səbir edər və bu onun üçün xeyir olar”.

[Səhih] [Muslim rəvayət etdi]

Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) möminin vəziyyətinə və halına gözəl şəkildə təəccüb edir. Çünki onun hər bir halı xeyirdir və bu mömindən başqa heç kəs üçün belə deyil. Əgər ona bir sevinc toxunsa, buna görə Allaha şükür edər və şükrünə görə əcr qazanar. Əgər başına bir müsibət gəlsə, səbr edər və mükafatını Allahdan umar və səbr etdiyinə görə əcr qazanar. Beləliklə o, hər bir halında savab qazanar.

http://www.sunnah.global/hadeeth/az/show/3298